DOI:10.30546/gdu.2023.168-171

**UOT:94(479.24).**

# XX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ AZƏRBAYCANDA İCTİMAİ- SİYASİ VƏZİYYƏT

***dos. t.ü.f.d., Ələsgərov Baxış İslam oğlu, dos. t.ü.f.d., Səmədov Yaqub Abbasqulu oğlu***
***elegerov.adpu@mail.ru, yaqub.semedov@mail.ru***
***ADPU-nun Ağcabədi filialı***

**Xülasə:** *Xalqı itaətdə saxlamaq və sosialist sistemini qoruyub saxlamaq üçün yerlərdə totalitar rejimi daha da gücləndirmək olduqca vacib idi. Lakin bununla belə, XX əsrin 50-60-cı illərində Sovet İmperiyasında baş verən ictimai- siyasi dəyişikliklər onun müstəmləkəsi olan Azərbaycandan da yan keçmədi. Bu məqamdan "faydalanmağa çalışan" erməni kommunist daşnakları da yenidən fəallaşdı və Kreml rəhbərliyinin himayəsi altında Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə çıxış etdi. Lakin Azərbaycana qarşı irəli sürülən əsassız ərazi iddiaları ermənilər üçün o qədər də faydalı olmadı. Bütün bu məsələlərə müəlliflər mövcud mənbələr əsasında obyektiv qiymət verməyə çalışmışlar.*

**Açar sözlər:** sovet, sosialist, totalitar rejim, senzura, erməni saxtakarlığı
**Key words:** Soviet, socialist, totalitarian regime, censorship, Armenian forgery
**Ключевые слова:** советский, социалистический, тоталитарный режим, цензура, армянская подделка

Müharibədən sonra cəmiyyətdə siyasi rejimin müəyyən səviyyədə liberallaşması gözlənilsə də, lakin bu baş tutmadı. Gözlənilənlərin əksinə olaraq, sovet rəhbərliyi daxili siyasi kursun daha da sərtləşdirilməsi üçün bir sıra tədbirlər həyata keçirdi. Üç il yarım ərzində 8,5 mln keçmiş döyüşçü ordudan tərxis olunaraq dinc həyata qaytarılıtdı. Dörd milyon nəfərdən çox repatriat, hərbi əsir, işğal edilmiş ərazilərdən köçürülən əhali və mühacirlərin bir hissəsi vətənə döndü. Vətənə qaytarılan 227 min hərbi əsirdən yalnız 20 faizi öz evlərinə dönə bildi, yerdə qalan böyük əksəriyyət isə ya, həbs düşərgələrinə göndərildi, ya da ən azı beş il olmaqla müharibədə dağıdılmış ərazilərin bərpasında çalışmaq şərti ilə icbari sürgünə məruz qaldı. 1956-cı ildə keçmiş əsirlər əfv edilənədək [1] bu cür acınacaqlı vəziyyət bir müddət davam etdi.

Xalqı itaətdə saxlamaq və sosialist sistemini qoruyub saxlamaq üçün yerlərdə totalitar rejimi daha da gücləndirmək olduqca vacib idi. Mərkəzdə Stalinin, Azərbaycanda isə Bağırovun şəxsi nəzarəti altında fəaliyyət göstərən Dövlət Təhlükəsizlik və Daxili İşlər Nazirlikləri bu istiqamətdə mühüm rol oynayırdı. Adamlara qarşı etimadsızlıq, gizli izləmə, düşüncələrə nəzarət, satqınlıq daha da genişlənmiş, mövcud cəmiyyətin daxilində məqsədli şəkildə qorxu və vahimə hissi yaradılmışdı. Hər kəs bir-birindən şübhələnirdi. "Kommunist" ideologiyasından bəhrələnən totalitar rejim elm, ədəbiyyat və incəsənət üzərinə tətbiq etdiyi senzuranı bu dövrdə daha da sərtləşdirdi. ÜİK(b)P MK-nın 1947- 1951-ci illərdə fəlsəfə, biologiya, fiziologiya, siyasi iqtisad, dilçilik və başqa elm sahələri üzrə açdığı "elmi" diskussiyalara "marksist" alimlərin əli ilə verdiyi yekun ehkamlar uzun illər bu elmlərin inkişafını ciddi şəkildə ləngitdi. Mühitin və tərbiyənin canlı aləmin inkişafında rolu şişirdilir, genlərlə verilən təbii imkanlar, demək olar ki, nəzərə alınmırdı [2, səh.378-379] .

Stalinin ölümündən sonra SSRİ adlanan "xalqlar həbsxanasında" dəyişikliklər başladı. Bu dövrə liberallaşma və yumşalma dövrü də deyilir. Buzlar, ağır-ağır da olsa, əriməyə məhkum idi. Sov. İKP-nin XX qurultayı Stalin cinayətlərini adıyla çağırdı, şəxsiyyətə pərəstişi ifşa etdi. Ölkə reabilitasiya dövrünü yaşamağa başladı. Repressiya və deportasiya qurbanlarına bəraət verildi [3].

XX əsrin 50-ci illərin ortalarında Azərbaycan SSR-də ciddi siyasi dəyişikliklər baş verdi. Yüksək təşkilatçılıq bacarığı, nümunəvi bioqrafiyası, qətiyyəti və nüfuzu ilə

DOI:10.30546/gdu.2023.168-171

respublikanın rəhbər heyətində fərqlənən İmam Mustafayev 1954-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. O, Stalin rejimindən sonrakı siyasi yumşalma və islahatlar dövründə 5 il respublikaya təşəbbüskarlıqla, milli təəssübkeşliklə rəhbərlik etdi. Həmin illərdə Azərbaycanda həyatın bütün sahələrində ciddi uğurlar qazanılmış, ötən epoxanın ağır nəticələri sürətlə aradan qaldırıldı, milli-mədəni mühitdə canlanma baş verdi. Azərbaycan rəhbərinin cəsarətli addımları, respublikanın konstitusiya hüquqlarından geniş istifadə etmək təşəbbüsləri SSRİ-ni "yağışdan çıxarıb yağmura salmış" Xruşşovçu rəhbərliyin xoşuna gəlmədi [4].

1959-cu ilin iyul ayının ilk günlərində Sov.İKP MK katibliyində və Rəyasət Heyətində Nikita Xruşşov belə qənaətə gəldi ki, İ. Mustafayevi birinci katib vəzifəsində saxlamaq olmaz. Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə o, Vəli Axundovun namizədliyini irəli sürdü. Sov.İKP MK Rəyasət Heyətinin üzvü Nurətdin Mühitdinovun iştirakı ilə bir həftə sonra keçirilən Azərbaycan KP MK-nın IX plenumunda Vəli Axundov 43 yaşında respublika partiya təşkilatının birinci katibi seçildi və on il bu vəzifədə işlədi (1959-1969-cu illər). T. Qaffarovun "Azərbaycan tarixi" əsərində göstərilidiyi kimi, 1959-cu ildə millətçilik üstə İman Mustafayev vəzifəsindən azad edildi. Millətçilik üstündə damğalanmış bir respublikaya rəhbərlik etmək elə də, asan deyildi. İ. Mustafayev ilə birlikdə "sayıqlığını" itirdiyinə görə, Azərbaycan rəhbərliyində Moskvanın adamı hesab edilən Dmitri Yakovlev də, Mərkəzi Komitənin birinci katibi vəzifəsindən azad edildi. Respublikaya nəzarəti gücləndirmək üçün Axundov birinci katib vəzifəsinə seçildikdən bir ay sonra bu vəzifəyə Nikita Xruşşova çox yaxınlığı ilə seçilən, Sov.İKP MK-nın partiya orqanları ilə iş şöbəsinin müdiri Vladimir Semiçastni göndərildi. 1961-ci ildə onun SSRİ DTK-nə sədr təyin edilməsi və yeddi il sovet xüsusi xidmət orqanlarına rəhbərlik etməsi də Azərbaycanın üzərində hansı nəzarətin qoyulmasından xəbər verirdi. Vladimir Semiçastnin 2002-ci ildə Moskvada nəşr olunmuş "Narahat ürək" adlı xatirələrindən aydın olur ki, Azərbaycanda onun nəzarətindən və diqqətindən kənar heç nə olmayıb. O yazır: "Mən belə bir qayda qoymuşdum: MK-nın heç bir qərarı mənim icazəm olmadan buraxılmırdı. Hətta Axundov imzalasaydı belə" Vladimir Semiçastnin əsas nəzarəti ədəbiyyat və incəsənətin üzərində idi [5].

Qısa bir müddətdə Azərbaycan SSR-in təhsil haqqında 1959-cu il qanununa respublikada təhsilin rus dilində aparılmasına geniş imkanlar açan əlavələr edildi. Yüksək vəzifələrdə rusların və ermənilərin sayı yenidən artdı [6].

Ermənistanda əsası hələ 40-cı illərdə əsas qoyulmuş "Qarabağ hərəkatı" xeyli fəallaşdı. "Daşnaksütyun" partiyasının qərarına əsasən "böyük Ermənistan" imperiyası qurmaq, bütün türkdilli xalqları kölə vəziyyətinə salmaq, tədricən məhv etmək məqsədi ilə "Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu "ASALA"- terrorçu siyasi silahlı təşkilat yarandı [6].

Xalqı qorxutmaq və müthi vəziyyətdə saxlamaq üçün mərkəz A. Mikoyan və M. Sultanovun timsalında 1945-ci ilin payızında Dağlıq Qarabağı Ermənistana birləşdirmək məsələsini yenidən gündəmə gətirdi. Həmin ilin noyabrında Moskvadan M. Bağırova göndərilən məktubda bu məsələ ilə bağlı onun rəyi də istənildi. Bu iddiaların heç bir elmi və tarixi əsasının olmadığını bildirən M. Bağırov əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Şuşa rayonu istisna olmaqla, müxtəlif dövrlərdə Ermənistana və digər respublikalara verilmiş tarixi Azərbaycan torpaqlarının geri qaytarılması şərtilə Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsi məsələsini irəli sürdü. Nə sovet rəhbərliyi, nə də ermənilər bu şərti qəbul etmədi [7].

Ötən əsrin 50-ci illərin ortalarında Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi bir daha qaldırıldı. Ermənistanda anti- Azərbaycan təbliğatı yenidən qızışdırıldı. Lakin ittifaq ərazisində 30-dan çox münaqişə ocağının olduğunu nəzərə alan sovet rəhbərliyi bu məsələnin

DOI:10.30546/gdu.2023.168-171

arzuolunmaz nəticələr verəcəyindən ehtiyat edərək problemi Azərbaycanın xeyrinə həll etdı. 1958 - ci ildə bütün ermənilərin katalikosu II Vazgen Bakıya səfər edərək Dağlıq Qarabağın Ermənistana verilməsini, Bakıda erməni ruhani seminariyasının açılmasını, Bakıdakı erməni kilsəsindən hər səhər zəng vurulmasını təklif etdi, lakin rədd cavabı aldı [7].

1960-cı illərin ortalarında Ermənistan SSR-də növbəti dəfə anti-Azərbaycan hərəkatı başladı. Qondarma "erməni soyqırımı"nın 50 illiyi, cəllad Andronikin 100 illiyi Ermənistanda geniş qeyd edildi və bu, öz doğma torpaqlarında yaşayan azərbaycanlıların daha da sıxışdırılmasına, Dağlıq Qarabağ Muxtar Vilayətində erməni millətçiliyinin açıq surətdə dərin kök salmasına yeni təkan verdi [7].

1969-cu ildən, yəni Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəlməmişdən əvvəl erməni rəsmi dairələri Ermənistanla sərhəddə yerləşən bəzi Azərbaycan ərazilərini ələ keçirmək üçün növbəti dəfə əsassız iddialarla çıxış etdilər. Əsassız iddialara "haqq qazandırmaq" üçün erməni rəsmi dairələri və alimləri hətta, XX əsrin 20-ci illərinə aid saxtalaşdırılmış xəritələr də tərtib etdilər. SSRİ hökumətinin təzyiqi altında Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də Ermənistan SSR-in sərhəd rayonlarında yerləşən azərbaycanlılara məxsus 2 min hektardan çox torpaq sahəsinin Ermənistan SSR-ə verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul etdiyi qərarı təsdiq etmək məcburiyyətində qaldı. Lakin Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan SSR-in rəhbəri seçilən kimi bu qərarın icrasını dayandırdı. Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev həyatı üçün nə qədər təhlükəli olsa da, bütün bu təzyiqləri rədd edərək prinsipial mövqe göstərdi və erməni millətçilərinin əsassız iddialarının qarşısını qətiyyətlə aldı. Moskvadakı bəzi qüvvələrin və Ermənistan rəhbərlərinin cəhdlərinə baxmayaraq, Heydər Əliyev həmin qərarın həyata keçirilməsinə imkan vermədi [8].

Beləliklə, SSRİ- nin süqutundan sonra, əvvəllər bu imperiyanın tərkibinə daxil olan respublikalarda tarix elminə münasibət köklü şəkildə dəyişdi. Bu isə Azərbaycanın XX əsr 50-60-cı illər tarixinin yeni baxımdan işlənilməsini və tədqiqini biz tədqiqatçılar qarşısında mühüm bir vəzifə kimi qoyur.

***Ədəbiyyat***

1. Baxşəliyev T. Ş. SSRİ 1940-cı illərin ikinci yarısı-50 ci illərin əvvəllərində. (Tarix və politologiya). 30 noyabr 2019, 13:38. Link: https://kayzen. az/blog/politologiya /23727/ssri-1940-cı-illərin-ikinci-yarısı-50 -ci-illərin- əvvəllərində. html.
2. XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik. Bakı, "Təhsil", 2009, 560 səh
3. Mustafayev İmam. Azərbaycanın 9-cu rəhbəri. (Baş məqalə). Milli az. 25 fevral 2014-cü il.Link: https://news.milli.az/society/249824.html.
4. Fərəcov Ç. "Fəaliyyətini Vətəninə, xalqına xidmətə həsr etmiş böyük vətəndaş". Xalq qəzeti.- 2010.- 25 fevral.- S. 5.
5. Həsənli C. Vəli Axundov: işıqlı on il. 525-ci qəzet. - 2011.- 14 may.- S.28-29.
6.Ömərov Vahid . Azərbaycan SSR 50-ci illərin ortaları və 60-cı illərin əvvəllərində. 525-ci qəzet.- 2012.- 1 dekabr.- S.14.
7. Cəfərli Rəşad. Azərbaycanın zəfərini təmin edən lider. "Azərbaycan" qəzeti, 03 may 2023 c
8. Heydər Əliyevin ermənilərın əsassız ərazi iddialarına qarşı mübarizəsi (1969-1987-ci illər). (baş məqalə). 14. 07. 2020. AZƏRTAC, Link: https://azertag. az/ xeber/ Heyder_Aliyevin_ermenilerin_esassiz_erazi_iddialarina_qarsi_mubarizesi_1969_1987_ci_ill er-1536175

DOI:10.30546/gdu.2023.168-171

## ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В АЗЕРБАЙДЖАНЕ В 50-60-ЫХ ГОДАХ XX ВЕКА

***Алескеров Бахиш Ислам оглы, Самедов Ягуб Аббасгулу оглы***

***Резюме***

Для того, чтобы удержать народ в повиновении и сохранить социалистический строй, было очень важно местами укрепить тоталитарный режим. Однако социальные и политические изменения, происходившие в Советской империи в 50-х и 60-х годах XX века, не обошли стороной и ее колонию – Азербайджан. «Пытаясь воспользоваться» этой ситуацией, армянские дашнаки-коммунисты вновь активизировались и выдвинули безосновательные территориальные претензии к Азербайджану под эгидой кремлевского руководства. Однако беспочвенные территориальные претензии к Азербайджану не очень пошли на пользу армянам. Авторы попытались объективно оценить все эти вопросы на основе доступных источников.

## THE PUBLIC-POLITIKAL SITUATION IN AZERBAIJAN IN 50-60-TH YEARS OF XX CENTURY

***Alasgarov Bakhish Islam, Samedov Yagub Abbasgulu***

***Summary***

In order to keep the people obedient and to preserve the socialist system, it was very important to strengthen the totalitarian regime in places. However, the social and political changes that took place in the Soviet Empire in the 50s and 60s of the 20th century did not escape its colony, Azerbaijan. "Trying to take advantage" of this situation, the Armenian communist Dashnaks became active again and made groundless territorial claims against Azerbaijan under the auspices of the Kremlin leadership. However, the groundless territorial claims against Azerbaijan were not very useful for Armenians. The authors tried to objectively evaluate all these issues based on available sources.

***Rəyçi: Baş müəllim A.B.Əliyev***

***İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası kafedrasının 16 may 2023-cü il tarixli iclasın 16 saylı protokolu***

***Daxil oma tarixi 17 may 2023-cü il***